AZƏRBAYCAN RESPUBLİKASI

BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

SƏRƏNCAMI

№ 19 15 Fevral 2024-ci il

**Müəssisələrdə kvota iş yerlərinin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli, 213 saylı Qərarına uyğun olaraq, 2024-cü il üçün "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota iş yerlərinin təsdiq edilməsi barədə" Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini, Məşğulluğa Kömək Göstərən Yerli Əlaqələndirmə Komitəsinin sədri vəzifəsinin səlahiyyətlərini icra edən Hacıbaba Babayevin Xidməti məruzəsini nəzərə alaraq "Yerli İcra Hakimiyyəti haqqında Əsasnamə"nin 6.8 və 3.8.0.1-ci bəndlərinə əsaslanaraq

**Qərara alıram:**

1. İşə düzəlməkdə çətinlik çəkən vətəndaşlar (20 yaşadək gənclər, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqları tərbiyə edən valideynlər, pensiya yaşına 2 ildən az qalmış şəxslər, əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar, cəzaçəkmə yerlərindən azad edilmiş vətəndaşlar, məcburi köçkünlər, müharibə veteranları, şəhid ailələri) üçün idarə müəssisə və təşkilatlarda 4 saylı Ərazi Məşğulluq filialı tərəfindən Binəqədi rayonu üzrə hesablanmış kvota iş yerlərinin siyahısı təsdiq edilsin (siyahı əlavə olunur).
2. Bakı Regional Məşğulluq Mərkəzi Binəqədi rayonu üzrə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən işaxtaranların kvota iş yerinə göndərilməsini təmin etsin.
3. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Hacıbaba Babayevə həvalə edilsin.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür:**

**Sənədlərlə və vətəndaşların**

**müraciətləri ilə iş şöbəsinin müdiri:** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon ... SƏNƏDLƏR ÜÇÜN